**AKKREDİTASİYA SAHƏSİ ÜZRƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT**

Akkreditasiya şöbəsi Azərbaycan Respublikasının Təhsil naziri M.Mərdanovun 15 fevral 2010-cu il tarixli 11/72 nömrəli əmri ilə "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi" alt komponenti çərçivəsində aparılan islahatlara uyğun olaraq və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsində nəzərdə tutulduğu kimi yaradılmışdır. Şöbə ilk olaraq Əsasnamə, "Təhsil müəssisələrinin akkreditasiya qaydaları"nın layihəsini və təhsil müəssisələrinin statusunu (tipini və növünü) müəyyənləşdirən meyarları hazırlamış və təsdiqə təqdim etmişdir. Cari ilin mart ayında 2010-2011-ci tədris ili üçün təhsil müəssisələrinin akkreditasiya qrafiki hazırlanmış və akkreditasiya olunacaq təhsil müəssisələrinə xəbərdarlıq məktubu göndərilmişdir. Sonuncu kursda təhsil alanların biliyinin attestasiyası zamanı istifadə olunan test tapşırıqlarının hazırlanması və ekspertizadan keçirilməsi təşkil olunmuşdur. Təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsi üçün akkreditasiya komissiyalarının tərkibi müəyyənləşdirilmiş, mütəxəssislərin işlədiyi müəssisə rəhbərlərindən razılıq alınmış və akkreditasiya komissiyalarının yaradılması barədə təqdimat və əmr layihələri hazırlanmışdır.

Aprel-iyun aylarında Lənkəran Dövlət Universiteti, Mingəçevir Politexnik İnstitutu, Naxçıvan Özəl Universiteti, Dövlət Neft Akademiyası və Şəki Musiqi Kollecinin akkreditasiyası keçirilmişdir. Sentyabr ayında Bakı Texniki Kollecinin, oktyabr-noyabr aylarında Azərbaycan Müəllimlər İnstitutu və onun 10 filialının, noyabr-dekabr aylarında Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universiteti və Şəki Pedaqoji Kollecinin akkreditasiyası həyata keçirilmişdir. İlin sonunadək Azərbaycan Milli Konservatoriyası, Sumqayıt Musiqi Texnikumu, Gədəbəy Peşə Liseyi və Mingəçevir Peşə Məktəbinin akkreditasiyası başa çatdırılacaqdır.

Akkreditasiya şöbəsi həmçinin təhsil müəssisələrinin lisenziyalaşdırılmasını həyata keçirir.

Təhsil müəssisəsinə xüsusi razılıq (lisenziya) Azərbaycan Respublikası Prezidentinin "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" 2 sentyabr 2002-ci il tarixli, 782 nömrəli Fərmanı, Nazirlər Kabinetinin "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə" Qərarı və sonrakı illərdə onlara edilmiş dəyişikliklər və əlavələr əsasında verilir. Lisenziya Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin təsis etdiyi bələdiyyə və özəl təhsil müəssisələrinə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin, xarici hüqüqi şəxslərin təsis etdiyi təhsil müəssisələrinin fəaliyyəti üçün nəzərdə tutulmuşdur. Təhsil müəssisələrinin fəaliyyətinə lisenziya 5 il müddətinə verilir. Akkreditasiya şöbəsi fəaliyyətə başladığı gündən lisenziya ilə bağlı şöbəyə daxil olmuş müraciətləri araşdırmış, müvafiq komissiyalar yaradaraq yerlərdə baxış keçirərək arayışları Lisenziya komissiyasına təqdim etmişdir. Cari ildə aşagıdakı müəssisələrə lisenziya verilmişdir:

- "Cücələrim" MMC-nin nəzdində məktəbəqədər tərbiyə müəssisəsi;
- "Şirin" uşaq bağçası;
- "Xəzər-RC" MMC-nin nəzdində uşaq bağçası;
- "Servise-AR" MMC-nin nəzdində uşaq bağçası;
- "Renesans-FS" MMC-nin nəzdində uşaq bağcası;
- "Baby Plaza" uşaq bağçası;
- "Azərsun Akademiyası" MMC-nin nəzdində mühafizə kursları;
- "Riyad Təlim-Tədris" MMC-nin nəzdində mühafizə kursları;
- "Delta Qroup TM" MMC-in nəzdində mühafizə kursları.

Akkreditasiya şöbəsinin müvafiq komissiyaları daxil olmuş müraciətlərə əsasən Moskva Açıq Dövlət Universitetinin Bakı filialı və Azərbaycan Beynəlxalq Universitetində yoxlama aparmış və hazırladığı arayışları Lisenziya komissiyasına təqdim etmişdir. Lisenziya Komissiyası hər iki ali təhsil müəssisəsində aşkar olunmuş ciddi nöqsanlara görə onların lisenziyalarını ləğv etmişdir. "Odlar Yurdu" Universitetinin, onun nəzdindəki Tam orta təhsil innovasiyalar məktəbinin, Xəzər Universitetinin və onun nəzdindəki "Dünya" ümumtəhsil

məktəbinin lisenziyasının müddəti növbəti 5 ilə uzadılmışdır. “Odlar Yurdu” Universitetinin nəzdindəki Orta İxtisas Təhsili Kollecinin fəaliyyət müddətinin uzadılması məqsədəuyğun hesab edilməmişdir. Bakı Biznes Universitetinin lisenziyasının müddətinin növbəti beş ilə uzadılması ılə bağlı ekspert qrupu yaradılmış və müvafiq işlər görülmüşdür. Həmçinin “Təlim” firmasının nəzdindəki uşaq bağçası, XXI-ci əsr Təhsil İnnovasiya Mərkəzinin nəzdindəki Tam Orta Təhsil Məktəbi və uşaq bağçası, GÜNAR LTD TTM tam orta ümumtəhsil məktəbinin Şəmkir filialı və “Nağıl” uşaq bağçasına lizenziya verilməsi ilə bağlı müraciətlərə baxılmış və nəticələri barədə arayış hazırlanaraq Lisenziya komissiyasının müzakirəsinə təqdim olunmuşdur. Şöbə lisenziya almış təhsil müəssisələrində lisenziya qaydalarının yerinə yetirilməsi ilə bağlı ildə bir dəfə müəyyən olunmuş müddətdə monitorinqin keçirilməsi qrafikini hazırlamışdır. Bu istiqamətdə işlər görülməkdə davam edir.